# ADİL ƏLİYEV – 85
# TÜKƏNMƏZ ENERJİ VƏ MƏSULİYYƏTİN VƏHDƏTİ



2015-ci ilin sentyabr ayının 7-də Bakıda dünyaya göz açan AMEA Geologiya və Geofizika İnstitutunun "Palçıq vulkanizmi" şöbəsinin rəhbəri, g.-m.e.d., prof. Ad.A.Əliyevin anadan olmasının 85, İnstitutda fəaliyyətinin 65 ili tamam olmuşdur.

O, 1949-cu ildə paytaxtın 3 saylı orta məktəbini müvəffəqiyyətlə başa vurduqdan sonra, 1954-cü ildə Azərbaycan Dövlət Universitetini (hazırda BDU) fərqlənmə diplomu ilə bitirərək neftçi-geoloq ixtisasına yiyələnmişdir. Elmi fəaliyyətinə həmin ilin yanvar ayından Azərbaycan Milli Elmlər Akademiyası Geologiya İnstitutunda (indiki Geologiya və Geofizika İnstitutu) başlamışdır.

1954-cü ildə "Neft və qazın geologiyası" ixtisası üzrə aspiranturaya qəbul olunmuşdur. 1958-ci ildə namizədlik dissertasiyasını müdafiə etmiş və geologiya-mineralogiya elmləri namizədi dərəcəsini almışdır. Bir ildən sonra böyük elmi işçi vəzifəsinə yüksəlmişdir. Sonrakı illərdə "Bituminologiya və süxurların üzvi maddələri" (1969-1970) və "Palçıq vulkanlarının geokimyası" (1972-1986) laboratoriyalarına rəhbərlik etmişdir. 1986-1990-cı illərdə Suriya Neft Şirkətində (Dəməşq şəhərində) baş mühəndis-geokimyaçı və elmi məsləhətçi vəzifələrində işləmişdir. 1992-ci ildə "Palçıq vulkanizminin geokimyası və böyük dərinliklərin neft-qızıllılığı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1997-ci ildən başlayaraq İnstitutun palçıq vulkanizmi şöbəsinə rəhbərlik edir.

90-cı illərdən bəri Bakıda fəaliyyət göstərən nüfüzulu neft şirkətləri (BP, Statoil, Amoko, Ekson və s.), qərb universitetləri (İtaliya, Almaniya) ilə Azərbaycanın geologiyasını, o cümlədən palçıq vulkanlarını tədqiq edir.

O, elmi fəaliyyəti dövründə bir sıra beynəlxalq elmi layihələrə, ekspedisiyalara və s. rəhbərlik edib. Belə ki, Adil müəllimin rəhbərliyi altında MDB, fəal iştirakı ilə Almaniya, İtaliya və s. ölkələrin nüfuzlu alimlərilə birgə Qaf-

qazın, Azov, Qara dənizlərin və s. geologiyası, palçıq vulkanizmi, geokimyasına dair fundamental və tətbiqi əhəmiyyətli elmi araşdırmalar aparılmışdır.

Palçıq vulkanlarının genezisi, təsnifatı, neft-qazlıqla əlaqəsi, eləcə də vulkan məhsulunun əlverişli geokimyəvi xüsusiyyətləri nəzərə alınmaqla dərində yatan çöküntülərin neft-qaz əmələgəlmədə rolu, palçıq vulkanizmi və seysmik aktivlik arasında mümkün əlaqələrin araşdırılması və s. məsələlərin öyrənilməsində Adil Əliyevin əldə etdiyi elmi nəticələrin yeniliyini, xüsusilə fərqləndirmək olar.

Tarixində ilk dəfə olaraq, Azərbaycan palçıq vulkanlarının "Təbiətin yeddi möcüzəsi" Beynəlxalq İnternet Müsabiqəsində iştirakı və finalda 28 elit qrupu sırasına düşməsində (2009-cu il) də Adil müəllimin müəllifi olduqları elmi-publisistik nəşrlərin xüsusi töhfəsi olmuşdur.

Dünyanın geologiya elmində misilsiz töhfə kimi dəyərləndirilən və ilk dəfə olaraq Azərbaycan alimlərinin təşəbbüsü ilə ərsəyə gətirilən "Dünya palçıq vulkanları" atlası prof. Adil Əliyevin rəhbərliyi altında hazırlanmış və üç dildə İtaliyanın nüfüzlu nəşr evində çap etdirilmişdir. Akademiyanın 70 illiyinə həsr olunan bu nadir elmi əsər, özündə dünyanın 42 ölkəsinin 2500 palçıq vulkanlarına dair bütün məlumatları əks etdirir. Zəngin məlumat və faktiki materiallar (yerli və xarici mənbələrin) əsasında sistemləşdirilən bu əsərdə, indiyədək palçıq vulkanizmi sahəsində mübahisə doğuracaq bir sıra məsələlərə aydınlıq gətirilib, yeni elmi nəticələr alınıb.

Azərbaycan palçıq vulkanlarının mühafizə olunması və bu geoloji irsin gələcək nəsillərə təbiətin əmanəti kimi çatdırılmasında da Adil müəllimin əməyi və qətiyyəti öz töhfəsini vermişdir. Belə 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ETSN-nin nəzdində "Bakı və Abşeron Yarımadası Palçıq Vulkanları Qrupu Dövlət Təbiət Qoruğunun yaradılmasında da professorun palçıq vulkanlarının təbii landşaftını və görünüşünü pozanlara qarşı və eyni zamanda vulkan ətrafında həyata keçirilən tikinti layihələrinin risk faktoruna dair onlarca rəsmi və publisistik müraciətləri öz layiqli qiymətini aldı.

Təcrübəli, yüksək ixtisaslı neftçi-geoloq, geokimyaçı və vulkanoloq mütəxəssis kimi Adil Əliyev 300-dən çox elmi əsərin, o cümlədən 15 kitabın müəllifidir. Onun elmi əsərləri nüfuzlu jurnallarda çap olunmuş, xaricdə və Respublikamızda keçirilən Beynəlxalq konqres, simpozium, konfrans materiallarında öz əksini tapmışdır. Son 15 il ərzində 2 elmlər doktoru və 7 fəlsəfə elmləri doktoru hazırlamışdır.

Ad. Əliyev İnstitutda "Neft və qaz geologiyası və geokimyası" seksiyasının rəhbəri, Elmi Şuranın və eləcə də Azərbaycan Respublikasının Prezidenti yanında AAK-n Ekspert Komissiyasının üzvüdür. Azərbaycan Jurnalistlər Birliyinin üzvü olaraq 50 ildən artıqdır ki, geologiya elminin təbliğində də aktiv fəaliyyət göstərir. Görkəmli alimin elmi-ictimai fəaliyyəti müxtəlif illərdə öz layiqli qiymətini almışdır.

O, 2005-ci ildə AR Əməkdar Elm Xadimi fəxri adına, 2008-ci ildə AR Prezidentinin fərdi təqaüdünə, 2010-cu ildə AR Dövlət mükafatına (N001) layiq görülmüş və bir çox medal, diplom, fəxri fərmanlar almışdır.

Adil müəllimin səmimiliyi, dürüstlüyü və xüsusən də vətənə olan bağlılığı onun məhsuldar elmi fəaliyyətində, yetişdirdiyi kadrların sonrakı inkişafında və ictimai fəallığında özünü sübut edir. Həmkarlarına qarşı göstərdiyi xüsusi münasibət və elmi gəncliyə olan əlaqəsi, onun tək görkəmli alim kimi deyil, həm də dostcanlı insan və nümunəvi həmkar kimi tanınmasında əsas faktor olmuşdur.

Özünün tükənməz daxili enerjisi, ciddi məsuliyyəti hesabına indiyədək elmi və ictimai sahədə əldə etdiyi nailiyyətləri münasibətilə yubilyarı təbrik edir, ona sonrakı çoxsahəli fəaliyyətində daha böyük uğurlar və daima səhhətində gümrahlıq arzu edirik.

***V.M.Babazadə, A.İ.Xasayev, M.İ.Çıraqov, Ə.Q.Novruzov,
M.N.Məmmədov, N.Ə.İmamverdiyev,
B.H.Qələndərov, S.A.İsayev, H.M.Hüseynov.***